AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

# Vergi Məcəlləsində edilmiş dəyişikliklər suallar və cavablarda

**“Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 3 dekabr 2021-ci il tarixli 406-VIQD nömrəli Qanunu ilə təsdiq edilmişdir.**

BAKI 2022

# MÜNDƏRİCAT


Vergitutma bazasının genişləndirilməsi ........ 3

Sosial xarakterli güzəştlər vasitəsilə əhalinin maliyyə (vergi) yükünün azaldılması ........ 11

«Kölgə iqtisadiyyatı»na qarşı mübarizə çərçivəsində vergidən yayınma hallarının qarşısının alınması ........ 19

Offşor zonalarla aparılan əməliyyatlar üzrə vergi nəzarətinin gücləndirilməsi və vergitutma bazasının genişləndirilməsi ........ 39

Sahibkarlıq subyektlərinin və bank-maliyyə sektorunun vergi yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi .... 42

Vergi borclarının yığılmasının effektivliyinin artırılması məqsədilə həmin borcların alınmasına möhlət verilməsi mexanizminin təkmilləşdirilməsi ........ 54

Uçot siyasətinin təkmilləşdirilməsi ........ 60

Bəzi hallar üzrə vergitutma mexanizminin təkmilləşdirilməsi ........ 64

## Vergi Məcəlləsinə edilmiş dəyişikliklər suallar və cavablarda

“Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 3 dekabr 2021-ci il tarixli 406-VIQD nömrəli Qanunu Azərbaycan Republikasının Prezidenti tərəfindən 29 dekabr 2021-ci ildə təsdiq edilib.

Qanunla Vergi Məcəlləsinə edilən növbəti əsaslı dəyişikliklər Məcəlləyə yeni anlayışların daxil edilməsi ilə yanaşı, aşağıdakı 8 əsas istiqamət üzrə dəyişiklikləri əhatə edir:

- Vergitutma bazasının genişləndirilməsi;
- Sosial xarakterli güzəştlər vasitəsilə əhalinin maliyyə (vergi) yükünün azaldılması;
- Kölgə iqtisadiyyatına qarşı mübarizə çərçivəsində vergidən yayınma hallarının qarşısının alınması;
- Ofşor zonalarla aparılan əməliyyatlar üzrə vergi nəzarətinin gücləndirilməsi və vergitutma bazasının genişləndirilməsi;
- Sahibkarlıq subyektlərinin və bank-maliyyə sektorunun vergi yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi;
- Vergi borclarının yığılmasının effektivliyinin artırılması məqsədilə vergi borclarının alınmasına möhlət verilməsi mexanizminin təkmilləşdirilməsi;
- Uçot siyasətinin təkmilləşdirilməsi;
- Bəzi hallar üzrə vergitutma mexanizminin təkmilləşdirilməsi.

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin vergi ödəyiciləri tərəfindən daha ərtraflı mənimsənilməsi üçün Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə bağlı sual-cavab kitabçası hazırlanıb. Ümid edirik ki, bu sual-cavab kitabçası hamı üçün faydalı olacaqdır.

# 1 | Vergitutma bazasının genişləndirilməsi

?

**1. Mən fərdi sahibkar olaraq topdansatış fəaliyyəti ilə məşğulam və təqdim etdiyim malları mülkiyyətimdə olan yük maşınları vasitəsilə pərakəndə ticarət obyektlərinə çatdırıram. Bundan əlavə, şəxsi istifadəmdə 2 ədəd minik avtomobili mövcuddur. Eşitdiyimə görə, bu ildən fərdi sahibkar olan fiziki şəxslər daşınar əmlaklarına görə əmlak vergisi ödəməlidirlər. Bilmək istəyirəm ki, fərdi sahibkarın mülkiyyətində olan və şəxsi istifadə üçün nəzərdə tutulan nəqliyyat vasitələrinə görə də əmlak vergisi ödənilməlidirmi?**

Bildiririk ki, Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, fərdi sahibkarların balansında olan daşınar əsas vəsaitlər əmlak vergisinin vergitutma obyektidir. Eyni zamanda, fiziki şəxslərə məxsus sahibkarlıq fəaliyyətində istifadə olunmayan minik avtomobilləri əmlak vergisindən azaddır.

Buna əsasən, müraciətdə göstərilən halda fərdi sahibkarın mülkiyyətində olan sahibkarlıq fəaliyyətində istifadə edilməyən minik avtomobillərinə görə əmlak vergisi hesablanmır. Fərdi sahibkarın mülkiyyətində olan və sahibkarlıq fəaliyyətində istifadə edilən yük avtomobillərinə görə isə əmlak vergisi hesablanır və dövlət büdcəsinə ödənilir.

**Əsas:** Vergi Məcəlləsi, 197.1.3 və 199.4.3-cü maddələr.

?

**2. Xəbər saytlarından əldə etdiyimiz məlumata görə, 2022-ci il yanvarın 1-dən etibarən fərdi sahibkarlar əmlak vergisini bələdiyyəyə deyil, dövlət büdcəsinə ödəyəcəklər. Bununla bağlı sualımız ondan ibarətdir ki, fərdi sahibkar olaraq təmir sexi kimi fəaliyyət göstərdiyimiz qeyri-yaşayış sahəsinə görə əmlak vergisinin ödənilməsində nə kimi yenilik var?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, binalar istisna olmaqla, fərdi sahibkarların balansında olan əsas vəsaitlərə görə əmlak vergisi dövlət büdcəsinə ödənilir. Fərdi sahibkarın xüsusi mükiyyətində olan binalara görə əmlak vergisinin hesablanıb ödənilməsi mexanizmində hər hansı dəyişiklik yoxdur və fərdi sahibkarın mülkiyyətində olan binalara, o cümlədən təmir sexi kimi fəaliyyət göstərən qeyri-yaşayış sahəsinə görə əmlak vergisi əvvəlki qaydada bələdiyyə tərəfindən təqdim edilmiş tədiyyə bildirişi əsasında bələdiyyə büdcəsinə ödənilir.

**Əsas:** Vergi Məcəlləsi, 197.1.1-ci, 197.1.3-cü və 200-cü maddələr.

## ? 3. Mən fərdi sahibkar olaraq sahibkarlıq fəaliyyətində istifadə etdiyim nəqliyyat vasitəsinə görə əmlak vergisini hansı büdcəyə ödəməliyəm? Bəyannamə verməliyəmmi?

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, həmin Məcəllənin 198.1-ci maddəsində nəzərdə tutulan hal istisna olmaqla, fiziki şəxslərin əmlak vergisi dövlət vergilərinə aid edilir. Buna əsasən, fərdi sahibkar tərəfindən sahibkarlıq fəaliyyətində istifadə edilən nəqliyyat vasitəsinə görə əmlak vergisi dövlət büdcəsinə ödənilməlidir. Həmçinin, fərdi sahibkar əmlak vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim edir.

Bununla yanaşı, mikro sahibkarlıq subyekti hesab olunduğunuz halda (illik gəlirləriniz 200.000 manatdan, işçi sayı 10 nəfərdən çox olmadığı halda) Vergi Məcəlləsinin 199.14-cü maddəsinin müddəalarına uyğun olaraq, əmlak vergisi üzrə vergi öhdəlikləriniz yaranmır. Belə ki, Vergi Məcəlləsinin 199.14-cü maddəsinə əsasən, mikro sahibkarlıq subyekti olan şəxslər əmlak vergisini ödəməkdən azaddırlar (mülkiyyətində olan əsas vəsaitlərin ilin əvvəlinə qalıq dəyəri 1.000.000 manatdan artıq olan şəxslər istisna olmaqla).

**Əsas:** Vergi Məcəlləsi, 6.1.5-ci, 199.14-cü və 201.5-ci maddələr.

## ? 4. Mən fərdi sahibkar kimi vergi orqanında uçota alınmaqla şüşə istehsalı ilə məşğul oluram. Sahibkarlıq fəaliyyətində istifadə etdiyim əsas vəsaitlərə görə əmlak vergisi üzrə cari ödəmələr nə qədərdir?

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, fərdi sahibkarlar cari vergi ödəmələrini rüb bitdikdən sonra 15 gündən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin məbləğinin 20 faizi həcmində ödəyir. Buna əsasən, vergi ödəyiciləri tərəfindən əmlak vergisi üzrə cari vergi ödəmələri əvvəlki ildəki əmlak vergisinin məbləğinin 20 faizi həcmində müəyyən olunur.

Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan fərdi sahibkarlar isə əsas vəsaitlərin əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər.

Əlavə olaraq bildiririk ki, əmlak vergisi üzrə cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

**Əsas:** Vergi Məcəlləsi 201.3-cü maddə.

### 5. İstehsal tarixi 10 il olan və benzinlə işləyən avtomobilin idxalı zamanı aksiz məbləğinin hesablanmasında hər hansı dəyişiklik edilibmi?

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, Azərbaycan Respublikasına idxal olunan minik avtomobillərinin istehsal tarixi 7 ildən artıq olduqda, aksiz Vergi Məcəlləsinin 190.4.1-ci və 190.4.1-3-cü maddələrinə əsasən hesablanmış məbləğə benzin mühərrikli minik avtomobillərinə görə 1,2 yüksəldici əmsal tətbiq edilməklə hesablanır.

**Əsas:** Vergi Məcəlləsi, 190.4.1-4-cü maddə.

### 6. Müəssisə çınqıl xammalının hasilatı ilə məşğul olduğundan, mədən vergisinin ödəyicisidir. Qeyd olunan xammal üzrə müəssisənin mədən vergisi öhdəliklərində hər hansı dəyişiklik varmı?

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, yerli əhəmiyyətli tikinti materialları üzrə (kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı) bələdiyyə büdcəsinə ödənilən mədən vergisi dövlət vergilərinə aid edilib. Buna əsasən, 1 yanvar 2022-ci il tarixdən çınqıl xammalının hasilatına görə hesablanmış mədən vergisi bələdiyyə büdcəsinə deyil, dövlət büdcəsinə ödənilir.

**Əsas:** Vergi Məcəlləsi, 8.1-ci və 217.5-ci maddələr.

**7. Balansında sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə edilən 3 avtonəqliyyat vasitəsi olan fərdi sahibkar tərəfindən vergi uçotunun ləğv edilməsi barədə vergi orqanına ərizə təqdim edildiyi halda, əmlak vergisi bəyannaməsi təqdim olunmalıdırmı?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, fərdi sahibkarların balansında olan və sahibkarlıq fəaliyyətində istifadə edilən daşınar əsas vəsaitlərə görə əmlak vergisi hesablanır. Fərdi sahibkar, fəaliyyətinin ləğvi hallarında, vergi uçotundan çıxarılma barədə ərizənin verildiyi tarixdən 30 gün müddətində əmlak vergisi bəyannaməsini vergi orqanına təqdim etməyə borcludur.

**Əsas:** Vergi Məcəlləsi, 197.1.3-cü və 201.5-ci maddələr.

**8. İstehsal tarixi 5 il və mühərrikinin həcmi 3500 kubsantimetr olan avtomobilin idxalı zamanı aksiz məbləği necə hesablanacaq?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, mühərrikinin həcmi 3000 kubsantimetrdən çox olan avtomobillərin istehsal tarixi 3 ildən artıq olarsa, aksiz məbləği 5600 manat + mühərrikin həcminin 3001-4000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə 15 manat olmaqla hesablanır.

**Əsas:** Vergi Məcəlləsi, 190.4.1-3-cü maddə.

?

**9. Müəssisəmiz işlənmiş şinlərin emalı ilə məşğul olur və bir sıra hallarda həmin şinləri müxtəlif yerlərdən toplayaraq müəssisəyə təhvil verən VÖEN-i olmayan şəxslərdən əldə edirik. Bu zaman həmin şinlərin mədaxili elektron alış aktı tərtib olunmaqla həyata keçirilir və ödədiyimiz vəsaitdən ödəmə mənbəyində 2 faiz vergi tuturduq. Bu sahədə hər hansı bir yenilik varmı?**

Bildiririk ki, vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan fiziki şəxslərdən işlənmiş şinlərin alınması elektron alış aktı ilə rəsmiləşdirilir və 1 yanvar 2022-ci il tarixdən həmin şəxslərə aparılan ödənişlərdən ödəmə mənbəyində 5 faiz dərəcə ilə vergi tutulur.

# 2 Sosial xarakterli güzəştlər vasitəsilə əhalinin maliyyə (vergi) yükünün azaldılması

?

**1. Müəssisə aztəminatlı ailənin üzvü olan şəxsə səhhətində yaranmış problemlə bağlı təqvim ili ərzində iki dəfə olmaqla xaricdə müalicə haqlarını qarşılamaq üçün ümumilikdə 38.000 manat dəyərində maddi yardım göstərir və həmin şəxs tərəfindən qeyd edilən vəsaitin təyinatı üzrə istifadə olunduğunu təsdiq edən sənəd müəssisəyə təqdim olunur. Həmin vəsait fiziki şəxsin vergi tutulan gəlirinə aid edilərək vergiyə cəlb olunurmu?**

Vergi Məcəlləsində edilmiş və 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş dəyişikliklərə əsasən, təqvim ili ərzində ölkə daxilində müalicə haqlarını, o cümlədən cərrahiyyə əməliyyatının haqqını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin 10.000 manatadək olan hissəsi, xaricdə müalicə haqlarını, o cümlədən cərrahiyyə əməliyyatının haqqını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin 50.000 manatadək olan hissəsi gəlir vergisindən azaddır. Təhsil və ya müalicə (o cümlədən cərrahiyyə əməliyyatı üçün) haqlarını ödəmək üçün maddi yardım, birdəfəlik müavinət almış şəxslərə bu güzəşt o halda verilir ki, həmin məbləğlərin təyinatı üzrə ödənildiyini təsdiq edən müvafiq sənədlər təqdim olunsun.

**Əsas:** Vergi Məcəlləsi, 102.1.3.1-ci maddə.

**2. Müəssisəmiz koorporativ məsuliyyət və həmrəylik çərçivəsində Vətən müharibəsi zamanı şəhid olan işçimizin ailəsinə birdəfəlik 15 min manat maddi yardım ayırıb. Bilmək istərdik: bu maddi yardım vergiyə cəlb edilirmi?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, şəhid olmuş şəxslərin ailə üzvlərinin əldə etdiyi maddi yardımın 20.000 manatadək olan hissəsi gəlir vergisindən azaddır. Buna əsasən, şəhid olan işçinin müəssisə tərəfindən ailə üzvlərinə ödənilən 15 min manat maddi yardımdan ödəmə mənbəyində vergi tutulmur.

**Əsas:** Vergi Məcəlləsi, 102.1.3.3-cü maddə.

**3. Vətən müharibəsində yaralanmış şəxs tərəfindən bank olmayan kredit təşkilatından götürülmüş kredit məbləğinə görə borcları silindiyi halda, əldə olunmuş gəlir vergiyə cəlb edilirmi?**

Vətən müharibəsi iştirakçılarının və Vətən müharibəsində, habelə Vətən müharibəsindən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatları və hərbi təxribatlar nəticəsində şəhid ailəsi statusu almış və əlilliyi müəyyən edilmiş şəxslərin banklara və digər kredit təşkilatlarına olan borclarının silinməsindən əldə olunan gəlir vergidən azad edilib.

**Əsas:** Vergi Məcəlləsi, 102.1.25-1-ci maddəsi.

?

**4. Mülkiyyətimdə olan və 4 təqvim ili ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğum Bakı şəhəri, Nərimanov rayonu ərazisində sökülmüş 100 kv.m sahəsi olan mənzil əvəzinə sökülmüş binanın yerində yeni tikilmiş binadan 125 kvadratmetr sahəsi olan mənzil verilib. Yeni əldə etdiyim mənzili satarkən notarius tərəfindən vergi tutulmalıdırmı?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, fiziki şəxs sökülmüş binada yerləşən yaşayış sahəsində azı 3 təqvim ili ərzində (sökülmüş və sökülmüş binanın yerində tikilən yeni binada yaşayış yeri üzrə qeydiyyatda olduğu müddətlər cəmlənməklə) yaşayış yeri üzrə qeydiyyatda olduğu halda, sökülmüş binanın yerində tikilən yeni binadan həmin fiziki şəxsə verilən yaşayış sahəsinin təqdim edilməsi də sadələşdirilmiş vergidən azad edilib. Bu zaman sadələşdirilmiş vergidən azadolma yerli icra hakimiyyəti orqanı tərəfindən verilmiş və özündə yaşayış sahələrinin sökülməsini və sökülmüş yaşayış sahəsinin müqabilində yeni yaşayış sahəsinin verilməsini təsdiq edən arayış əsasında fiziki şəxsin sökülmüş yaşayış sahəsinin sahəsi həddində (artıq sahə verildiyi halda isə sökülmüş yaşayış sahəsinin 20 faizi həddində artıq sahə üzrə) tətbiq edilir.

Buna əsasən, sökülmüş yaşayış sahəsinin əvəzində verilən və sahəsi 125 kvadratmetr olan yaşayış sahəsi tərəfinizdən təqdim edilərkən müvafiq arayış notariusa təqdim olunmaqla təqdim edilən yaşayış sahəsinin 120 kvadratmetr (əvvəlki mənzilin sahəsi 100 kv.m və 20 kv.m sökülmüş yaşayış sahəsinin 20 faizi həddində artıq sahə) sahəsi vergidən azad olunur, qalan 5 kavdratmetr sahə isə ümumi qaydada sadələşdirilmiş vergiyə cəlb edilir.

**Əsas:** Vergi Məcəlləsi, 218-1.1.5.1-ci maddə.

## ? 5. Xətai rayonunda yerləşən yaşayış sahəsində 10 təqvim ili ərzində yaşamasına baxmayaraq, mülkiyyət hüququnu təsdiq edən sənədi olmayan vətəndaş həmin mənzili satarkən notariuslar tərəfindən vergi tutulmalıdırmı?

Vergi Məcəlləsində edilmiş və 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş dəyişikliyə əsasən, fiziki şəxsin mülkiyyətində (o cümlədən ər və arvadın ümumi birgə mülkiyyətində) yalnız bir yaşayış sahəsi olduğu halda, şəxsin həmin yaşayış sahəsi üzrə qeydiyyatının olub-olmamasından asılı olmayaraq, azı 3 təqvim ili ərzində həmin yaşayış sahəsində yaşamasını təsdiq edən sənədlər (kommunal xidmətləri göstərən təşkilatlar tərəfindən şəxsin həmin ünvanda abonent kimi qeydiyyatda olmasını təsdiq edən arayışlar) olduğu halda, həmin yaşayış sahələrinin təqdim edilməsi alğı-satqı müqaviləsini təsdiq edən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergidən azaddır.

**Əsas:** Vergi Məcəlləsi, 218-1.1.5.1-1-ci maddə.

**?**

**6. Müəssisəmiz işçinin vəfat etməsi ilə əlaqədar əmək müqaviləsinə xitam verib. Vəfat edən işçinin vərəsələrinə ödəniləcək müavinətdən gəlir vergisi hesablanmalıdırmı?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, işçinin vəfatı ilə əlaqədar əmək müqaviləsinə xitam verildikdə vəfat edənin vərəsələrinə Azərbaycan Respublikasının Əmək Məcəlləsinə müvafiq ödənilən təminatlar, habelə Azərbaycan Respublikasının qanunları və müvafiq icra hakimiyyəti orqanlarının qərarları əsasında dövlət büdcəsinin vəsaiti hesabına fərdi birdəfəlik ödəmələr və ya maddi yardımlar gəlir vergisindən azaddır.

**Əsas:** Vergi Məcəlləsi, 102.1.4-cü maddə.

**?**

**7. Vətən müharibəsində əlil olmuş hərbi qulluqçuya verilən maddi yardım vergiyə cəlb edilirmi?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçuların və mülki şəxslərin əldə etdiyi maddi yardımın 20.000 manatadək olan hissəsi gəlir vergisindən azaddır.

**Əsas:** Vergi Məcəlləsi, 102.1.3.4-cü maddə.

## 8. Müəssisə ləğv edildiyi üçün işçilərin əmək müqaviləsinə xitam verilib. Bu zaman işçilərə ödəniləcək müavinətdən gəlir vergisi hesablanmalıdırmı?

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, hüquqi şəxsin, onun filial və ya nümayəndəliyinin, habelə fərdi sahibkarın fəaliyyətinin ləğvi, işçilərin sayının və ştatların ixtisar edilməsi ilə əlaqədar əmək müqaviləsinə xitam verildikdə, işçilərə Azərbaycan Respublikasının Əmək Məcəlləsinə müvafiq ödənilən təminatlar, habelə Azərbaycan Respublikasının qanunları və müvafiq icra hakimiyyəti orqanlarının qərarları əsasında dövlət büdcəsinin vəsaiti hesabına fərdi birdəfəlik ödəmələr və ya maddi yardımlar gəlir vergisindən azaddır.

**Əsas:** Vergi Məcəlləsi, 102.1.4-cü maddə.

# 3 | «Kölgə iqtisadiyyatı»na qarşı mübarizə çərçivəsində vergidən yayınma hallarının qarşısının alınması

## 1. Aldığım tibbi xidmətə görə klinikaya ödədiyim ƏDV-nin müəyyən hissəsi geri qaytarılmalıdırmı?

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, həmin tarixdən fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində tibbi xidmətlərin göstərilməsinə görə ödənilmiş ƏDV-nin qaytarılması həyata keçirilir.
Əlavə olaraq bildiririk ki, qaytarılan məbləğ nağdsız qaydada ödənilmiş ƏDV-nin 15 faizini, nağd qaydada ödənilmiş ƏDV-nin isə 10 faizini təşkil edir.

**Əsas:** Vergi Məcəlləsi, 165.5-ci maddə.

?

**2. Orta sahibkarlıq subyekti hesab edilən ayaqqabı istehsalçısı tərəfindən istehsal olunan ayaqqabının xammal və material sərfi barədə vergi orqanına hər hansı məlumat təqdim edilməlidirmi?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, mikro və kiçik sahibkarlıq subyektləri istisna edilməklə, istehsal fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən istehsal edilən məhsulun vahidinə tələb olunan xammal və material sərfi normaları barədə müvafiq formada məlumatı hər il yanvar ayının 31-dək elektron qaydada vergi orqanına təqdim etmək vergi ödəyicilərinin vəzifəsidir. İstehsal prosesi ilə, o cümlədən yeni məhsul növünün istehsalına başlanılması ilə bağlı təqdim edilmiş məlumatda il ərzində dəyişiklik olarsa, bununla bağlı dürüstləşdirilmiş məlumat təqvim ili ərzində vergi orqanına təqdim edilməlidir.
Eyni zamanda, qeyd olunan məlumat formasının müəyyən edilmiş müddətdə təqdim olunmamasına və ya təqdim edilmiş məlumat formasında təhrif olunmuş məlumatların göstərilməsinə görə vergi ödəyicisinə 1000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

**Əsas:** Vergi Məcəlləsi, 16.1.4-2-ci və 57.3-cü maddə.

## ? 3. Fərdi sahibkar kimi uşaq geyimlərinin pərakəndə satışı ilə məşğul oluram. Türkiyədən idxal edəcəyim geyimlərin saxlandığı yerlər barədə vergi orqanına məlumat verməliyəmmi?

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, neft-qaz sahəsində fəaliyyəti olan və ya dövlət sektoruna aid edilən vergi ödəyiciləri istisna olmaqla, digər vergi ödəyiciləri tərəfindən idxal ediləcək mallar barədə müvafiq formada mülkiyyət, icarə və ya digər əşya hüquqları əsasında istifadə edilən və (və ya) vergi orqanlarında təsərrüfat subyekti (obyekti) kimi uçota alınmış malların saxlanılacağı (boşaldılacağı) yer barədə, mallar digər şəxslərə məxsus yerlərdə məsuliyyətli mühafizəyə və ya saxlanca verildiyi halda, tərəflər arasında bağlanmış müqavilə və malların saxlanma yeri barədə məlumatları malların idxal olunacağı tarixədək qeydiyyatda olduğu vergi orqanına vermək vergi ödəyicilərinin vəzifələrinə aid edilib. Buna əsasən, tərəfinizdən Türkiyə Respublikasından idxal ediləcək geyimlərin saxlanılacağı (boşaldılacağı) yer barədə məlumatlar həmin malların idxal olunacağı tarixədək qeydiyyatda olduğunuz vergi orqanına təqdim edilməlidir.
İdxal edilmiş mallar barədə müvafiq məlumatları təqdim etməyən və ya təhrif olunmuş formada təqdim edən vergi ödəyicisinə idxal edilmiş malların hesab-faktura (invoys) dəyərinin və ya onun təhrif olunmaqla təqdim edilmiş hissəsinin mikro sahibkarlıq subyektlərinə münasibətdə 2 faizi miqdarında, digər şəxslərə münasibətdə isə 5 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

**Əsas:** Vergi Məcəlləsi, 16.1.11-11-ci və 57.5-ci maddələr.

## ? 4. Müəssisəmiz sadələşdirilmiş verginin ödəyicisidir. Digər vergi ödəyicilərinə olan borclarımız (kreditor borcları) barədə məlumatları vergi orqanına təqdim etməliyikmi?

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri tərəfindən Vergi Məcəlləsinin 149-cu maddəsində nəzərdə tutulmuş müddətlərdə təqdim edilən bəyannamələrlə eyni gündə vergi ili üzrə kreditor və debitor borcları barədə müvafiq formada məlumatı elektron qaydada vergi orqanına təqdim etmək vergi ödəyicilərinin vəzifələrinə aid edilib. Buna əsasən, sadələşdirilmiş verginin ödəyiciləri tərəfindən vergi ili üzrə kreditor borcları barədə məlumatların vergi orqanına təqdim edilməsi nəzərdə tutulmayıb.

**Əsas:** Vergi Məcəlləsi, 16.10-cu maddə.

?

## 5. Vergi orqanı tərəfindən keçirilən səyyar vergi yoxlaması zamanı yoxlanılan dövr əlavə olaraq artırıla bilərmi?

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, vergi ödəyicisində keçirilən səyyar vergi yoxlaması zamanı, bu Məcəllə ilə müəyyən olunmuş müddətlər nəzərə alınmaqla, yoxlamanın əhatə etdiyi dövr və (və ya) vergi növləri vergi ödəyicisinin müraciəti əsasında, keçirilən səyyar vergi yoxlamasının əhatə etdiyi dövrdən sonrakı dövrdə vergidən yayınma hallarının olması barədə vergi orqanında mənbəyi bəlli məlumatlar olduqda və ya cinayət-prosessual qanunvericiliyinə uyğun olaraq məhkəmənin və ya hüquq-mühafizə orqanlarının vergi yoxlamalarının keçirilməsi barədə müvafiq qərarı olduqda artırıla bilər. Lakin vergi orqanının müvafiq qərarı ilə artırılmış yoxlanılan dövr Vergi Məcəlləsinin 36.3-cü maddəsi ilə müəyən edilmiş 3 illik dövrdən çox ola bilməz.

**Əsas:** Vergi Məcəlləsi, 36.3-1-ci maddə.

## 6. Mənfəət vergisi üzrə bəyannamə təqdim edildikdən neçə gün sonra vergi orqanı tərəfindən kameral vergi yoxlaması keçirilə bilməz?

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, kameral vergi yoxlaması vergi ödəyicisi tərəfindən Vergi Məcəlləsinin 72-ci maddəsində nəzərdə tutulmuş vergi bəyannaməsinin təqdim edildiyi tarixdən mənfəət və gəlir vergisi bəyannaməsinə (ödəmə mənbəyində tutulan gəlirlər üzrə və xüsusi notariusun gəlir vergisi bəyannaməsi istisna olmaqla) münasibətdə 60 iş günü müddətində keçirilir. Xaricdən əldə edilən gəlirlər üzrə xarici dövlətlərin səlahiyyətli orqanlarından müvafiq məlumatlar daxil olduğu halda, kameral vergi yoxlaması Vergi Məcəlləsinin 85.4-cü maddəsində göstərilmiş dövr üzrə məlumatlar daxil olduğu tarixdən 30 iş günü müddətində keçirilir. Bu müddətlər başa çatdıqdan sonra həmin bəyannamə və ya xaricdən əldə olunan məlumatlar üzrə yenidən kameral vergi yoxlaması keçirilə bilməz.

**Əsas:** Vergi Məcəlləsi, 37.2-ci maddə.

### 7. Satış məqsədilə idxal etdiyim malların saxlanıldığı yerə vergi orqanı tərəfindən baxış keçirilə bilərmi?

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, həmin Məcəllənin 16.1.11-11-ci maddəsində nəzərdə tutulmuş məlumatları təqdim edən vergi ödəyicisinin mallarının saxlanıldığı (boşaldıldığı) yerə həmin mallar idxal edildiyi vaxtdan 3 iş günü müddətində baxış keçirmək və baxışın nəticəsini forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən təsdiq olunmuş protokolla rəsmiləşdirmək vergi orqanlarının hüquqlarına aid edilib. Eyni zamanda, vergi ödəyicisinin idxal olunmuş mallarının saxlanıldığı (boşaldıldığı) yerə baxışın keçirilməsi operativ vergi nəzarəti tədbiri ilə əhatə edilmiş məsələlərə aiddir.

**Əsas:** Vergi Məcəlləsi, 23.1.3-2-ci və 50.1.13-1-ci maddələr.

### 8. İstehsal etdiyim pivənin anbardan satış obyektinə elektron qaimə-faktura tərtib edilmədən göndərilməsinə görə mənə maliyyə sanksiyası tətbiq oluna bilərmi?

Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən, həmin Məcəllənin 71-1.5.10-cu maddəsində nəzərdə tutulmuş növdə elektron qaimə-faktura tərtib olunmadan malların bir təsərrüfat subyektindən (obyektindən) digər təsərrüfat subyektinə (obyektinə) göndərilməsinə görə vergi ödəyicisinə elektron qaimə-faktura ilə rəsmiləşdirilməyən hər bir belə əməliyyat üçün 100 manat miqdarında maliyyə sanksiyası tətbiq edilir. Buna əsasən, pivə istehsalçısı tərəfindən istehsal olunmuş pivənin anbardan

satış obyektinə təsərrüfatdaxili yerdəyişməsi barədə elektron qaimə-faktura tərtib olunmadan göndərilməsinə görə elektron qaimə-faktura ilə rəsmiləşdirilməyən hər bir belə əməliyyat üçün 100 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.
Əlavə olaraq bildiririk ki, aksizli malların (neft məhsulları istisna olmaqla) təsərrüfatdaxili yerdəyişməsi barədə elektron qaimə-fakturaya aid Vergi Məcəlləsinə edilmiş əlavə 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

**Əsas:** Vergi Məcəlləsi, 58.13-1-ci və 71-1.5.10-cu maddələr, “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” 03.12.2021-ci il tarixli 406-VIQD nömrəli Qanunun 2.1-ci bəndi.

?

**9. Mən agent qaydasında malların satışı ilə məşğul oluram. Həmin malların subagentə təqdim etməklə satışı zamanı aparılan əməliyyatlar necə rəsmiləşdirilməlidir?**

Agent (komisyonçu) tərəfindən malların (işlərin, xidmətlərin) subagentə verilməsi, habelə subagent tərəfindən malların (işlərin, xidmətlərin) alıcıya təqdim olunması zamanı Vergi Məcəlləsinin 71-1.5.5-ci maddəsinə uyğun olaraq elektron qaimə-faktura tərtib edilir və müvafiq olaraq əməliyyatın subagentə ötürülməsi və subagent tərəfindən aparılması ilə bağlı qeyd aparılır.

**Əsas:** Vergi Məcəlləsi, 71-1.7-ci maddə.

?

**10. Müəssisəmiz orta sahibkarlıq subyektidir. Aparılan yoxlama ilə əlaqədar vergi orqanı müəssisənin maliyyə vəziyyəti, kapitalda dəyişikliklər kimi maliyyə hesabatlarını tələb edir. Müəsisəmiz bu hesabatları vergi orqanına təqdim etməyə bilərmi?**

Vergi Məcəlləsində edilmiş və 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalara əsasən, həmin Məcəllə ilə müəyyən olunmuş hallarda və qaydada vergi orqanlarına və onların vəzifəli şəxslərinə zəruri olan kağız və elektron daşıyıcılarda məlumatları və sənədləri (orta və iri sahibkarlıq subyektləri maliyyə hesabatlarını da), habelə mühasibat uçotu elektron formatda aparıldığı halda, özünün, filiallarının və digər struktur bölmələrinin elektron daşıyıcılarında olan məlumatlara və uçot bazalarına birbaşa və ya məsafədən çıxış imkanı yaratmaqla həmin məlumatları vergi orqanının tələbi ilə təqdim etmək vergi ödəyicisinin vəzifəsidir. Buna əsasən, müraciətdə qeyd olunan halda, orta sahibkarlıq subyekti vergi orqanının tələbi ilə maliyyə hesabatlarını təqdim etməlidir, əks təqdirdə, bu vəzifənin icra edilməməsinə görə vergi ödəyicisinə 1000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

**Əsas:** Vergi Məcəlləsi, 16.1.6-cı və 57.3-cü maddələr.

?

**11. Mən fərdi sahibkar kimi kənd təsərrüfatı məhsullarının pərakəndə satışı ilə məşğul oluram. Həmin məhsulları topdansatış qaydasında digər vergi ödəyicilərindən alıram və ödənişləri nağdsız qaydada aparmaq istəyirəm. Bu zaman banka verdiyim ödəniş tapşırığında hansı məlumatlar qeyd edilməlidir?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, vergi ödəyicisi olan şəxslər arasında Vergi Məcəlləsinin 71-1.5-ci maddəsində göstərilən əməliyyatlar üzrə ödəniş aparılarkən əməliyyatı həyata keçirən banka və ya bank əməliyyatlarını aparan digər şəxslərə təqdim edilən ödəniş tapşırığında elektron qaimə-fakturanın seriya və nömrəsi göstərilir. Təqvim ayı ərzində eyni vergi ödəyicisindən müntəzəm və daimi əsaslarda alınan və elektron qaimə-fakturalar ilə rəsmiləşdirilən mallara (işlərə, xidmətlərə) görə ödəniş aparılarkən belə əməliyyatlar üzrə tərəflər arasında bağlanmış müqavilə və ya həmin müqaviləyə əlavənin tarixi və nömrəsi barədə məlumatlar da əks etdirilir.

**Əsas:** Vergi Məcəlləsi, 16.11-ci və 71-1.5-ci maddələri.

?

**12. Müəssisəmiz öz təsisçisi olan hüquqi şəxs ilə 2020-ci ildə 45.000 manat dəyərində borc müqaviləsi bağlayıb, 03.01.2022-ci il tarixdə alınmış borc geri qaytarılıb. Bu zaman banka verilmiş ödəniş tapşırığında borc müqaviləsinə dair məlumatlar qeyd edilməyib. Buna görə müəssisəmizə maliyyə sanksiyası tətbiq edilə bilərmi?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, vergi ödəyicisi olan şəxslər arasında borc ödənişləri üzrə əməliyyat aparılarkən əməliyyatı aparan banka və ya bank əməliyyatlarını həyata keçirən digər şəxslərə təqdim edilən ödəniş tapşırığında təyinatında borc ödənişi olduğu göstərilməklə tərəflər arasında bağlanmış borc müqaviləsinin və ya borcun ödənilməsinə dair tələbnamənin tarixi və nömrəsi əks etdirilməlidir.
Yuxarıda qeyd olunan məlumatları ödəmə tapşırığında göstərməyən və ya təhrif edilməklə göstərən vergi ödəyicisinə hər belə ödəmə tapşırığına görə 100 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

**Əsas:** Vergi Məcəlləsi, 16.11-ci və 57.7-ci maddələr.

?

**13. Ticarət mərkəzində topdansatış ticarət fəaliyyəti ilə məşğul olan fərdi sahibkar tərəfindən malların alışı Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada sənədləşdirilmədən aparıldığı hallarda, vergi orqanı hansı tədbirləri həyata keçirə bilər?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, malların, o cümlədən kənd təsərrüfatı məhsullarının topdansatışı ilə məşğul olan ticarət obyektlərində, bazarlarda nəzarət postlarının qurulmasını və bu obyektlərə Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada sənədləşdirilməyən, habelə əmtəə-nəqliyyat qaiməsi olmayan malların gətirilməsinin qarşısının alınması səlahiyyətlərini həyata keçirmək vergi orqanlarının hüquqlarına aid edilib.
Buna əsasən, vergi orqanı öz səlahiyyətləri çərçivəsində ticarət obyektləri və bazarlarda qeyd olunan halların qarşısının alınması məqsədilə nəzarət postları qura bilər.

**Əsas:** Vergi Məcəlləsi, 23.1.3-1-ci maddə.

?

**14. Çap xidmətlərinin göstərilməsi fəaliyyəti ilə məşğul olan vergi ödəyicisi tərəfindən həmin xidmətlər üzrə nəzarət-kassa aparatı quraşdırıla bilərmi?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, həmin Məcəllənin 16.1.8-ci maddəsinin müddəaları nəzərə alınmaqla, pul hesablaşmalarını Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş meyarlara cavab verən və Dövlət Vergi Xidmətinin elektron informasiya sisteminə real vaxt rejimində qoşulmuş nəzarət-kassa aparatları vasitəsilə həyata keçirmək vergi ödəyicisinin hüquqlarına aid edilib.
Buna əsasən, nəzarət-kassa aparatı quraşdırılması məcburi olmayan vergi ödəyiciləri tərəfindən nəzarət-kassa aparatı quraşdırıla bilər və pul hesablaşmalarının aparılmasını çek təqdim etməklə həyata keçirə bilər.

**Əsas:** Vergi Məcəlləsi, 15.1.15-ci və 16.1.8-ci maddələr.

?

**15. Əmək müqaviləsi bağlamaqla fiziki işlərə cəlb edilmiş 5 nəfər işçisi olan və aylıq icarə haqqı 1000 manat təşkil edən qeyri-yaşayış sahəsini icarəyə götürən hüquqi şəxs 2022-ci ilin mart ayının 15-i tarixində fəaliyyətini dayandırmaq barədə vergi orqanına ərizə təqdim edir. Bu zaman hüquqi şəxs tərəfindən vergi orqanına ödəmə mənbəyində tutulan vergilər barədə bəyannamə hansı tarixədək təqdim olunmalıdır?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, ödəmə mənbəyində vergini tutmağa borclu olan vergi ödəyiciləri Azərbaycan Respublikasında fəaliyyətini dayandırdıqda, habelə hüquqi şəxs və ya qeyri-rezidentin daimi nümayəndəliyi ləğv edildikdə, vergi ödəyicisi olan fiziki şəxsin fəaliyyətinə xitam verildikdə təqdim olunmalı hesabatın müvafiq təqdimetmə müddətlərindən gec olmamaq şərtilə, 30 gün müddətində ödəmə mənbəyində tutulan vergilər barədə vergi orqanına bəyannamə verməyə borcludurlar.
Buna əsasən, hüquqi şəxs tərəfindən fəaliyyətinin dayandırılması barədə vergi orqanına ərizə təqdim edildiyi tarixdən 30 gün müddətində ödəmə mənbəyində tutulan vergilər barədə vergi orqanına bəyannamə verilməlidir.

**Əsas:** Vergi Məcəlləsi, 150.6-cı maddə.

## ? 16. Mülkiyyətində olan nəqliyyat vasitəsilə malların daşınmasını həyata keçirən vergi ödəyicisinə həmin malların daşınmasına görə hansı sənəd verilməlidir?

Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən, "Avtomobil nəqliyyatı haqqında" Qanuna uyğun olaraq avtomobil nəqliyyatı vasitəsilə əmtəə təyinatlı yüklərin daşınmasına görə elektron əmtəə-nəqliyyat qaiməsini və yük avtonəqliyyatı üçün elektron yol vərəqəsini tərtib etmək vergi ödəyicisinin vəzifələrinə aiddir.
Buna əsasən, yükdaşıma fəaliyyəti göstərən vergi ödəyicisi tərəfindən yüklərin yükgöndərəndən yükalana daşınaraq təhvil verilməsi elektron əmtəə-nəqliyyat qaiməsi və elektron yol vərəqəsi əsasında həyata keçirilir.
Eyni zamanda, bildiririk ki, müvafiq dəyişikliyin tətbiqi elektron əmtəə-nəqliyyat qaiməsinin və elektron yük avtonəqliyyatı üçün elektron yol vərəqəsinin forması, tətbiqi, uçotu və istifadəsi qaydasının Nazirlər Kabineti tərəfindən təsdiqi ilə eyni gündə qüvvəyə minir.

**Əsas:** Vergi Məcəlləsi, 16.1.11-10-cu və 71-3-cü maddələr, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" 03.12.2021-ci il tarixli 406-VIQD nömrəli Qanunun 2.2-ci bəndi.

?

**17. Vergi orqanında uçota alınıb VÖEN əldə etmişəm və mikro sahibkarlıq subyekti kimi fəaliyyət göstərirəm. Satış həyata keçirdiyim obyekti vergi orqanında uçota almadan orada un məmulatlarının satışını həyata keçirirəm. Bu zaman mənə hər hansı maliyyə sanksiyası tətbiq edilə bilərmi?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, vergi ödəyicisinin həmin Məcəllənin 33.2-ci maddəsinə uyğun olaraq təsərrüfat subyektinin (obyektinin) müəyyən olunmuş qaydada vergi orqanlarında uçota alınmamasına və (və ya) təsərrüfat subyektinin (obyektinin) sahəsi barədə təhrif olunmuş məlumatın verilməsinə görə mikro sahibkarlıq subyektlərinə, qeyri-kommersiya təşkilatlarına və qeyri-sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərə münasibətdə 40 manat məbləğində, digər şəxslərə münasibətdə 400 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.
Buna əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirdiyi obyektin vergi orqanında uçota alınmamasına görə mikro sahibkarlıq suyekti olan vergi ödəyicisinə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

**Əsas:** Vergi Məcəlləsi, 58.2-1-ci maddə.

## ? 18. Hostel fəaliyyəti üzrə müştərilərdən alınan ödənişlərə görə nəzarət-kassa aparatının çeki təqdim edilməlidirmi?

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, pərakəndə ticarət və ictimai iaşə fəaliyyəti ilə yanaşı, yerləşmə vasitələri hesab edilən mehmanxana (hotel) və mehmanxana tipli digər obyektlər, tibb müəssisələri, bərbərxanalar, gözəllik salonları və kosmetoloji mərkəzlər əhali ilə pul hesablaşmalarını nəzarət-kassa aparatı vasitəsilə həyata keçirməli olan vergi ödəyicilərinin dairəsinə aid edilib. Buna əsasən, hostel fəaliyyəti üzrə müştərilərdən alınan ödənişlərə görə onlara nəzarət-kassa aparatının çeki təqdim edilməlidir.

**Əsas:** Vergi Məcəlləsi, 16.1.8-ci maddə.

**19. Əvvəlki dövrdə keçirilmiş səyyar vergi yoxlaması zamanı sənədlər təqdim olunmadıqda sənədləri təqdim etməklə vergi orqanı tərəfindən çıxarılan məsuliyyət qərarından şikayət etsək, həmin dövr üzrə yenidən səyyar vergi yoxlaması keçirilə bilərmi?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, vergi ödəyicisi tərəfindən səyyar vergi yoxlaması zamanı sənədlər təqdim olunmadıqda və vergi yoxlamasının nəticələrinə görə vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi haqqında vergi orqanının qərarından vergi ödəyicisi tərəfindən sənədlər təqdim olunmaqla yuxarı vergi orqanına şikayət verildikdə, əvvəlki səyyar vergi yoxlaması ilə yoxlanılan dövr əhatə olunmaqla yuxarı vergi orqanının qərarı əsasında növbədənkənar səyyar vergi yoxlaması keçirilə bilər.

**Əsas:** Vergi Məcəlləsi, 38.3.9.2-ci maddə.

?

## 20. Topdansatış ticarət fəaliyyəti həyata keçirdiyim obyektdən vergi orqanında uçotda olmayan istehlakçılara mal təqdim edilməsinə görə mənə hər hansı maliyyə sanksiyası tətbiq oluna bilərmi?

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, topdansatış ticarət və istehsal obyektlərindən, habelə anbarlardan malların pərakəndə satış qaydasında rəsmiləşdirməklə təqdim edilməsinə görə – malları təqdim edən şəxsə təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə təqdim olunmuş malların satış qiymətinin 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə isə 40 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

**Əsas:** Vergi Məcəlləsi, 58.13-cu maddə.

# 4 Offşor zonalarla aparılan əməliyyatlar üzrə vergi nəzarətinin gücləndirilməsi və vergitutma bazasının genişləndirilməsi

?

**1. Seyşel Adalarının rezidenti tərəfindən ölkə ərazisində fəaliyyət göstərən banka qoyulmuş depozitlərə görə ona ödənilən faiz ödənişlərindən Vergi Məcəlləsinin 125-1-ci maddəsinə görə ödəmə mənbəyində vergi tutulmalıdırmı?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, Azərbaycan Respublikasına qoyulmuş investisiyalar və Azərbaycan Respublikasındakı maliyyə institutlarına yerləşdirilmiş depozitlər üzrə güzəştli vergi tutulan ölkələrə və ya ərazilərə aparılan faiz və dividend ödənişləri bu maddənin məqsədləri üçün Azərbaycan mənbəyindən gəlirlərə aid edilmir. Buna əsasən, güzəştli vergi tutulan ölkənin rezidentinin Azərbaycan Respublikasındakı banka qoyduğu depozitlərə görə ona ödənilən faiz ödənişlərindən ödəmə mənbəyində vergi tutulmur.

**Əsas:** Vergi Məcəlləsi, 13.2.16.14-1.7-ci maddə.

?

**2. Mən vergi orqanında uçotda olmadan güzəştli vergi tutulan ölkədə onlayn qaydada keçirilən tədris proqramında iştirak məqsədilə həmin ölkədə olan bank hesabına ödəniş etdikdə ödəmə mənbəyində vergi tutulurmu?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, vergi orqanında uçotda olmayan fiziki şəxslər tərəfindən elektron ticarət qaydasında xidmətlərin alışı ilə bağlı güzəştli vergi tutulan ölkələrə və ya ərazilərə ödənişlər edildikdə, həmin ödənişlər Azərbaycan mənbəyindən gəlirlərə aid edilmir.
Buna əsasən, vergi orqanında uçotda olmayan fiziki şəxslər tərəfindən güzəştli vergi tutulan ölkələrdə və ya ərazilərdə onlayn qaydada keçirilən tədris proqramında iştirak məqsədilə güzəştli vergi tutulan ölkələrdə və ya ərazilərdə olan hesablara ödənişlər edildikdə, həmin ödənişlərdən ödəmə mənbəyində vergilərin tutulması qanunvericilikdə nəzərdə tutulmayıb.

**Əsas:** Vergi Məcəlləsi, 13.2.16.14-1-ci maddə.

# 5 Sahibkarlıq subyektlərinin və bank-maliyyə sektorunun vergi yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi

?

**1. İcarəyə götürülmüş və icarəçinin balansında uçota alınmayan binaya görə icarəçi tərəfindən 5000 manat dəyərində əsaslı təmir xərci çəkilib və həmin xərc icarəyə verən tərəfindən ödənilməyib. Bu zaman icarəçi tərəfindən çəkilən xərc gəlirdən hansı qaydada çıxılmalıdır?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, icarəçinin balansında uçota alınmayan əsas vəsaitlərin təmirinə çəkilən və icarə haqqı ilə əvəzləşdirilməyən, yaxud icarəyə götürən tərəfindən əvəzi ödənilməyən xərclər icarəçi tərəfindən kapitallaşdırılaraq təmir edilən əsas vəsaitin aid olduğu kateqoriya üzrə Vergi Məcəlləsinin 114.3-cü maddəsində müəyyən edilmiş amortizasiya dərəcəsi ilə amortizasiya olunur.
Buna əsasən, icarəçi tərəfindən balansa götürülməyən binaya görə çəkilmiş təmir xərci kapitallaşdırılır və Vergi Məcəlləsinin 114.3.1-ci maddəsinə uyğun olaraq, 7 faizədək amortizasiya edilərək gəlirdən çıxılır.

**Əsas:** Vergi Məcəlləsi, 114.3.1-ci və 115.6-1-ci maddələr.

?

**2. A MMC-nin 2021-ci il üzrə mənfəəti 90.000 manat olub. Cəmiyyət tərəfindən həmin ildə "Qarabağ Dirçəliş Fondu"na 5000 manat məbləğində nağd qaydada ianə edilib. Bu halda, Fonda köçürülən məbləğlər vergidən azad olunurmu?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, paylarının (səhmlərinin) 51 və daha artıq faizi birbaşa və ya dolayısı ilə dövlətə məxsus olan hüquqi şəxslər və dövlətin adından yaradılmış publik hüquqi şəxslər istisna edilməklə, vergi ödəyicisinin hesabat ilinin mənfəətinin 10 faizindən çox olmayan hissəsinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara köçürülən hissəsi üzrə 2021-ci il 1 yanvar tarixdən 8 il müddətinə mənfəət vergisindən azaddır. Bu azadolma yalnız nağdsız qaydada ödənilən xərclərə münasibətdə tətbiq edilir.
Buna əsasən, cəmiyyət tərəfindən ianə edilmiş məbləğ hesabat ilinin mənfəətinin 10 faizindən çox olmadığı üçün həmin məbləğ tam şəkildə mənfəət vergisindən azaddır.

**Əsas:** Vergi Məcəlləsi, 106.1.18-ci maddə.

?

**3. Ərzaq mallarının satışı ilə məşğul olan vergi ödəyicisi tərəfindən Türkiyədən 2022-ci ilin yanvar ayında idxal olunan portağallar ölkə ərazisində pərakəndə qaydada nəzarət-kassa aparatı çeki təqdim edilməklə vətəndaşlara satılıb. Bu zaman həmin malların satışı üzrə ƏDV hansı məbləğdən hesablanmalıdır?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, həmin tarixdən 3 il müddətində kənd təsərrüfatı məhsullarının (yerli və xarici mənşəli) topdan və pərakəndə satışı zamanı ƏDV ticarət əlavəsindən hesablanan verginin məbləğidir. Eyni zamanda, 2022-ci il yanvarın 1-dən əldə edilmiş kənd təsərrüfatı məhsullarının (yerli və xarici mənşəli) alışı elektron qaimə-faktura, idxal gömrük bəyannaməsi və bu bəyannamə ilə bağlı hesab-faktura (invoys), habelə elektron alış aktı ilə, topdan və pərakəndə satışı müvafiq olaraq elektron qaimə-faktura və nəzarət kassa-aparatının çeki ilə rəsmiləşdirildiyi halda, ƏDV ticarət əlavəsindən hesablanır.
Kənd təsərrüfatı məhsullarının alışı elektron qaimə-faktura, idxal gömrük bəyannaməsi və bu bəyannamə ilə bağlı hesab-faktura (invoys), habelə elektron alış aktı ilə, topdan və pərakəndə satışı müvafiq olaraq elektron qaimə-faktura və nəzarət kassa-aparatının çeki ilə rəsmiləşdirilmədikdə isə ƏDV ümumi dövriyyədən hesablanır.

**Əsas:** Vergi Məcəlləsi, 153.3-cü və 174.4-cü maddələr.

?

**4. Meyvə-tərəvəz istehsalı ilə məşğul olan kəndli əkin sahəsinin dərmanlanması üçün ƏDV qeydiyyatında olan hüquqi şəxs ilə müqavilə bağlayır. Bu halda, hüquqi şəxs tərəfindən göstərilən aqrotexniki xidmətlərə ƏDV tətbiq edilirmi?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, kənd təsərrüfatı məhsullarının istehsalçılarına aqrotexniki xidmətlərin göstərilməsi ƏDV-dən azaddır. Buna əsasən, ƏDV qeydiyyatında olan hüquqi şəxs tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalçısına göstərilən aqrotexniki xidmətlərin dəyərinə ƏDV tətbiq edilmir.

**Əsas:** Vergi Məcəlləsi, 164.1.34-2-ci maddə.

?

**5. Avtomobil ehtiyat hissələrinin satışı ilə məşğul olan fərdi sahibkar tərəfindən elektrik mühərriki ilə işləyən avtomobillər üçün elektrik enerji doldurucularının idxal edilərək satışı nəzərdə tutulur. Bu zaman həmin mallara görə ƏDV ödənilməlidirmi?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, elektrik mühərriki ilə işləyən avtomobillər üçün ikinci və üçüncü səviyyə elektrik enerji doldurucularının idxalı və satışı ƏDV-dən azaddır.

**Əsas:** Vergi Məcəlləsi, 164.1.41-2-ci maddə.

?

**6. ƏDV qeydiyyatında olan tibb müəssisəsi balansında qalıq dəyəri 100.000 manat olan daşınmaz əmlakı əlillərin reabilitasiyası ilə məşğul olan müvafiq dövlət orqanına əvəzsiz olaraq verib. Həmin əməliyyatın aparılması zamanı ƏDV öhdəliyi yaranırmı?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, hüquqi və fiziki şəxslər tərəfindən daşınmaz əmlakların, habelə əmlak kompleksi şəklində müəssisələrin dövlət orqanlarına (qurumlarına) əvəzsiz olaraq verilməsi ƏDV tutulan əməliyyat sayılmır.

Eyni zamanda bildiririk ki, hüquqi və fiziki şəxslər tərəfindən daşınmaz əmlak, habelə əmlak kompleksi şəklində müəssisələr dövlət orqanlarına (qurumlarına) əvəzsiz olaraq verildikdə, vergi tutulan gəlir müəyyən edilərkən gəlir və ya zərər kimi nəzərə alınmır.

**Əsas:** Vergi Məcəlləsi, 144.1.4-cü və 160.4-cü maddələr.

?

**7. Avtomobil satışı ilə məşğul olan müəssisə 2021-ci ilin dekabr ayında 2017-ci il istehsalı olan 5 ədəd hibrid avtomobil idxal edib. Həmin avtomobillərin cari təmir işləri görülməklə 2022-ci ilin yanvar ayından etibarən satışına başlanılacaq. Bu zaman avtomobillərin satışına görə ƏDV öhdəliyi yaranırmı?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, istehsal tarixi 3 ildən və mühərrikinin həcmi 2500 kubsantimetrdən çox olmayan hibrid avtomobillərin idxalı və satışı 2022-ci il yanvarın 1-dən 3 il müddətinə ƏDV-dən azaddır. Buna əsasən, istehsal tarixi 3 ildən yuxarı olan hibrid avtomobillərin satışı ümumi qaydada 18 faiz dərəcə ilə ƏDV-yə cəlb olunur.

**Əsas:** Vergi Məcəlləsi, 164.1.41-1-ci maddə.

## ? 8. Xəbər saytlarından əldə etdiyimiz məlumata görə, hasilat sənayesi ilə məşğul olan vergi ödəyicilərinə müəyyən güzəştlər nəzərdə tutulub. Bu sahədə hər hansı yenilik varmı?

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, geoloji ayırma sənədi əsasında faydalı qazıntı yataqlarının (neft və qaz yataqları istisna olmaqla) axtarışı, qiymətləndirilməsi və kəşfiyyatı işlərinə cəlb edilən torpaq sahələrinə görə torpaq vergisi müvafiq təsdiqedici sənədlər (geoloji-kəşfiyyat işlərini həyata keçirən şəxsin podrat müqaviləsi, geoloji-kəşfiyyat planı, geoloji-kəşfiyyatla bağlı təqdim edilən hesabat) əsasında faydalı qazıntı yataqlarının axtarışı, qiymətləndirilməsi və kəşfiyyatı işlərinə başlanıldığı təqvim ili üzrə 75 faiz azaldılır. Bu güzəşt eyni vergi ilində geoloji ayırma sənədi əsasında faydalı qazıntı yataqlarının (neft və qaz yataqları istisna olmaqla) axtarışı, qiymətləndirilməsi və kəşfiyyatı işlərinə cəlb edilən və istismar olunaraq faydalı qazıntılar çıxarılan torpaq sahələrinə münasibətdə tətbiq edilmir.
Eyni zamanda, neft və qaz istisna olmaqla, digər faydalı qazıntılara görə vergi ödəyicisi tərəfindən təqvim ili üzrə hesablanmış mədən vergisinin məbləği həmin faydalı qazıntıların çıxarıldığı torpaq sahələrinə görə onun tərəfindən həmin təqvim ili üzrə hesablanmış və ödənilmiş torpaq vergisinin məbləğindən çox olmamaqla təqvim ilinin sonuncu hesabat ayında azaldılır.

**Əsas:** Vergi Məcəlləsi, 207.8-ci və 217-1-ci maddələri.

?

**9. Mən kənd təsərrüfatı məhsullarının pərakəndə satışı ilə məşğul oluram. 04.01.2022-ci il tarixdə yeni məhsul partiyası almışam və həmin mallara görə ticarət əlavəsindən ƏDV ödəmişəm. Bu mallara görə ödədiyim ƏDV-ni əvəzləşdirə bilərəmmi?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satışı ilə məşğul olan vergi ödəyiciləri tərəfindən 2022-ci il  yanvarın 1-dən əldə edilmiş kənd təsərrüfatı məhsullarına görə 3 il müddətində ödənilmiş ƏDV məbləğləri əvəzləşdirilmir.

**Əsas:** Vergi Məcəlləsi, 175.12-ci maddə.

?

**10. Cəmiyyət beynəlxalq daşıma sahəsində ekspeditor fəaliyyəti göstərmək niyyətindədir. Cəmiyyətin balansında nəqliyyat vasitələri olmadığından, digər şəxslər vasitəsilə beynəlxalq yükdaşımanın təşkilini planlaşdırır. Göstərəcəyimiz xidmət ƏDV-yə hansı qaydada cəlb ediləcək?**

Vergi Məcəlləsində 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş dəyişikliklərə əsasən, beynəlxalq və tranzit yük daşınması ilə bağlı ekspeditor xidmətlərinin göstərilməsi ƏDV-yə sıfır (0) dərəcə ilə cəlb olunanəməliyyalar sırasına aid edilib.
Buna əsasən, qeyd olunan xidmətlərin göstərilməsi ƏDV-yə sıfır (0) dərəcə ilə cəlb ediləcək.

**Əsas:** Vergi Məcəlləsi, 165.1.4-cü maddə.

?

**11. Lizinq təşkilatı tərəfindən fermer təsərrüfatı olan şəxslərə müvəqqəti lizinqə verilən kənd təsərrüfatı texnikasına görə aparılan ödəmələr ƏDV-yə cəlb edilirmi?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən kənd təsərrüfatı texnikalarının mülkiyyət hüququnun keçməməsi şərtilə kənd təsərrüfatı istehsalçılarına lizinqə (icarəyə) verilməsi ƏDV-dən azad edilən əməliyyatlar siyahısına aid edilmişdir.
Buna əsasən kənd təsərrüfatı texnikasının mülkiyyət hüququnun keçməməsi şərtilə fermerə lizinqə verilməsi ƏDV-dən azaddır.

**Əsas:** Vergi Məcəlləsi, 164.1.34-1-ci maddə.

?

**12. Mülkiyyətində olan torpaq sahəsində qiymətli bəzək daşları çıxaran və satışını həyata keçirən vergi ödəyicisinə həmin faydalı qazıntının istehsalına görə hesablanılmalı olan mədən vergisinə güzəşt nəzərdə tutulubmu?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, neft və qaz istisna olmaqla, digər faydalı qazıntılara görə vergi ödəyicisi tərəfindən təqvim ili üzrə hesablanmış mədən vergisinin məbləği həmin faydalı qazıntıların çıxarıldığı torpaq sahələrinə görə onun tərəfindən həmin təqvim ili üzrə hesablanmış və ödənilmiş torpaq vergisinin məbləğindən çox olmamaqla, təqvim ilinin sonuncu hesabat ayında azaldılır.

**Əsas:** Vergi Məcəlləsi, 217-1-ci maddə.

?

**13. Bankımız tərəfindən 44 günlük Vətən müharibəsi nəticəsində şəhid olmuş şəxsin ailə üzvünə verilmiş kreditlər üzrə hesablanmış faizlərin silinməsi bankın vergitutulan gəlirlərinə aid edilirmi?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, banklar və kredit təşkilatları tərəfindən Vətən müharibəsi iştirakçılarının və Vətən müharibəsində şəhid olmuş şəxslərin, habelə Vətən müharibəsi nəticəsində şəhid ailəsi statusu almış şəxslərin 2021-ci il 1 yanvar tarixinədək alınmış kreditlər üzrə həmin tarixədək ödənilməyən borclarına görə hesablanmış faizlərin silinməsi bankların və digər kredit təşkilatlarının vergi tutulan gəlirlərinə aid edilmir. Bu maddə ilə müəyyən edilmiş silinən borcların əsas məbləği üzrə yaradılmış ehtiyatlar gəlirdən çıxılan xərclərə aid edilir.
Buna əsasən, bank tərəfindən Vətən müharibəsi nəticəsində şəhid ailəsi statusu almış şəxsə 2021-ci il 1 yanvar tarixinədək verilmiş kreditlər üzrə həmin tarixədək ödənilməyən borca görə hesablanmış faizlərin silinməsi bankın vergi tutulan gəlirlərinə aid edilmir.

**Əsas:** Vergi Məcəlləsi, 130.7-ci maddə.

## ? 14. Mən fərdi sahibkar kimi kitabların satışı ilə məşğul oluram. Bu fəaliyyət ƏDV-yə cəlb edilirmi?

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş kütləvi informasiya vasitələri məhsullarının və kitabların (elektron kitablar istisna olmaqla), habelə dərslik komplektlərinin idxalı və satışı, həmin malların (məhsulların) istehsalı (nəşri) ilə bağlı rulon və ya vərəqə şəklində kağızın idxalı və satışı ƏDV-dən azaddır.

**Əsas:** Vergi Məcəlləsi, 164.1.7-ci maddə.

# 6

# Vergi borclarının yığılmasının effektivliyinin artırılması məqsədilə həmin borcların alınmasına möhlət verilməsi mexanizminin təkmilləşdirilməsi

?

## 1. Fərdi sahibkar kimi yay mövsümündə çimərlik ərazisində ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər üzrə yaranmış vergi öhdəliklərinin yerinə yetirilmə müddəti uzadıla bilərmi?

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, vergi öhdəliklərinin yerinə yetirilməsi müddətinin həmin Məcəllə ilə müəyyən edilmiş müddətdən daha gec müddətə dəyişdirilməsi hallarından biri də vergi ödəyicisi tərəfindən yalnız mövsümi xarakterli malların təqdim edilməsi, işlərin görülməsi və ya xidmətlərin göstərilməsidir.

**Əsas:** Vergi Məcəlləsi, 85.6.4-cü və 85.8-ci maddələr.

?

**2. Fərdi sahibkar kimi, Zaqatala rayonunda mövsümi iaşə fəaliyyəti göstərirəm və mikro sahibkarlıq subyektiyəm. Hal-hazırda 13.000 manat vergi borcum yaranıb. Vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması üçün vergi orqanına müraciət edərkən hansı sənədlər təqdim olunmalıdır?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması üçün vergi ödəyicisi tərəfindən vergi növü (növləri) üzrə vergi orqanına yazılı müraciət təqdim edilməlidir. Bu zaman müraciət edilmə tarixinə vergi ödəyicisinin kassasında, milli və ya xarici valyutada cari və ya digər hesablarında vəsaitlərin qalığı, debitorların və kreditorların VÖEN göstərilməklə adı və borcun məbləği, habelə son bir il ərzində bank hesabları üzrə aparılmış əməliyyatlar barədə arayışlar əlavə edilir.

**Əsas:** Vergi Məcəlləsi, 85.9-cu və 85.9.1-ci maddələr.

## ? 3. Vergi Məcəlləsində edilmiş son dəyişikliklərə əsasən vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması üçün əsaslar olduqda, vergi ödəyicisinin müraciəti ilə vergi öhdəliyinin yerinə yetirilməsi hansı müddətədək uzadıla bilər?

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, həmin Məcəllənin 85.6-cı maddəsində nəzərdə tutulmuş əsaslar olduqda, vergi öhdəliyinin yerinə yetirilməsi müddəti vergi orqanının qərarı ilə vergi ödəyicisinin seçimindən asılı olaraq borcun ödənilməsinə 6 aydan çox olmayan müddətə möhlət verilə, cari vergilər üzrə borcun ödənilməsinə təqvim ili ərzində 6 aydan çox olmayan müddətə möhlət verilə və ya vergi öhdəliyinin razılaşdırılmış qrafik əsasında hissə-hissə icrası şərtilə borcun ödənilməsinə 1 ildən çox olmayan müddətə möhlət verilə bilər.
Əlavə olaraq bildiririk ki, vergi ödəyicisi tərəfindən möhlət verilən dövr ərzində möhlət verilmiş borcun 75 faizi ödənildiyi halda, vergi ödəyicisinin müraciəti əsasında borcun ödənilməsinə 6 aydan çox olmayan müddətə verilən möhlət 1 ildən, vergi öhdəliyinin razılaşdırılmış qrafik əsasında hissə-hissə icrası şərtilə borcun ödənilməsinə verilən möhlət isə 2 ildən çox olmayan müddətə yuxarı vergi orqanının qərarı ilə artırıla bilər.

**Əsas:** Vergi Məcəlləsi, 85.10-cu və 85.10-1-ci maddələr.

?

**4. Vergi orqanının qərarı ilə müəssisənin 5000 manat məbləğində sadələşdirilmiş vergi borcunun ödənilməsinə 6 aylıq müddətə möhlət verilib. Bu müddət ərzində möhlət verilmiş həmin borcun 4000 manatı ödənilib. Borcun qalan hissəsinə münasibətdə möhlətin müddəti artırıla bilərmi?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, vergi ödəyicisi tərəfindən möhlət verilmiş dövr ərzində borcun 75 faizi ödənildiyi halda, vergi ödəyicisinin müraciəti əsasında borcun ödənilməsinə 6 aydan çox olmayan müddətə verilən möhlət 1 ildən,  vergi öhdəliyinin razılaşdırılmış qrafik əsasında hissə-hissə icrası şərtilə borcun ödənilməsinə verilən möhlət isə 2 ildən çox olmayan müddətə yuxarı vergi orqanının qərarı ilə artırıla bilər.
Buna əsasən, sorğuda göstərilən halda müəssisə tərəfindən möhlət verilmiş borcun 75 faizi ödənildiyindən, bu müddət 1 ildən çox olmayan müddətə yuxarı vergi orqanının qərarı ilə artırıla bilər.

**Əsas:** Vergi Məcəlləsi, 85.10-1-ci maddə.

**5. Müəssisəmiz vergi borcunun ödənilməsinə 1 il müddətə möhlət alıb, lakin bu dövr ərzində müəssisənin yeni borcları yaranıb. Bu halda, möhlət müddəti yeni yaranmış borclara da şamil edilirmi?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, vergi orqanının qərarı ilə vergi borcunun ödənilməsinə möhlət verilən dövr ərzində vergi ödəyicisinin yeni vergi borcu yarandığı halda, həmin borc Vergi Məcəlləsi ilə müəyyən edilmiş ümumi qaydada dövlət büdcəsinə ödənilir.

**Əsas:** Vergi Məcəlləsi, 85.10-3-cü maddə.

**6. Vergi orqanının qərarı ilə müəssisənin vergi borcunun ödənilməsinə möhlət verilib. Bilmək istəyirdim ki, möhlət verilmiş müddət həmin borcun vergi orqanları tərəfindən 5 illik tələbi müddətinə daxil edilirmi?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, vergi orqanının qərarı əsasında vergi öhdəliyinin yerinə yetirilməsinin uzadıldığı müddət həmin Məcəllənin 85.4-cü maddəsində nəzərdə tutulan vergi borcunun tələb edilməsi ilə bağlı 5 illik müddətə daxil edilmir.

**Əsas:** Vergi Məcəlləsi, 85.12-ci maddə.

# 7 Uçot siyasətinin təkmilləşdirilməsi

## 1. Kiçik sahibkarlıq subyekti hesab olunan müəssisə 2022-ci ildə öz gəlir və xərclərinin uçotunu kassa metodu ilə apara bilərmi?

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, mikro sahibkarlıq subyektləri öz seçimlərindən asılı olaraq gəlirlərin və xərclərin uçotunu kassa metodu və ya hesablama metodu ilə, kiçik, orta və iri sahibkarlıq subyektləri isə hesablama metodu ilə aparır. Eyni zamanda, bildiririk ki, qeyd olunan dəyişiklik orta və iri sahibkarlıq subyektlərinə münasibətdə 1 yanvar 2022-ci il tarixdən, kiçik sahibkarlıq subyektlərinə münasibətdə isə 1 yanvar 2023-cü il tarixdən tətbiq ediləcək.
Buna əsasən, kiçik sahibkarlıq subyekti olan müəssisə 2022-ci ildə gəlir və xərcinin uçotunu kassa metodu ilə apara bilər, 1 yanvar 2023-cü il tarixdən isə gəlir və xərcinin uçotunu yalnız hesablama metodunu tətbiq etməklə aparmalıdır.

**Əsas:** Vergi Məcəlləsi, 130.4-cü maddə, “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” 03.12.2021-ci il tarixli 406-VIQD nömrəli  Qanunun 2.3-cü bəndi.

?

## 2. Mikro sahibkarlıq subyekti hesab olunan vergi ödəyicisi öz gəlir və xərclərinin uçotunu hansı metodla aparmalıdır?

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, mikro sahibkarlıq subyektləri öz seçimlərindən asılı olaraq gəlir və xərclərinin uçotunu kassa metodu və ya hesablama metodu ilə, kiçik, orta və iri sahibkarlıq subyektləri isə hesablama metodu ilə aparır.
Buna əsasən, mikro sahibkarlıq subyekti olan vergi ödəyicisi gəlir və xərcinin uçotunu öz seçimindən asılı olaraq kassa metodu və ya hesablama metodu ilə apara bilər.

**Əsas:** Vergi Məcəlləsi, 130.4-cü maddə.

**3. Aksizli mal istehsal edəcək şəxs vergi orqanında uçota alınmaq üçün müraciət etmək istəyir. Bu halda, ƏDV məqsədləri üçün qeydiyyata dair ərizə hansı tarixdən verilməlidir?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, bu Məcəllənin 154.6-cı maddəsində nəzərdə tutulmuş fəaliyyətlə məşğul olan şəxslər dövlət qeydiyyatına və ya vergi orqanında uçota alınmaq üçün ərizə ilə birlikdə, bu fəaliyyətlə sonradan məşğul olduqları halda isə həmin fəaliyyəti həyata keçirməyə başladığı günədək ƏDV məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludur.
Buna əsasən, aksizli mal istehsalı ilə məşğul olan şəxs vergi orqanında uçota alınmaq üçün ərizə ilə birlikdə ƏDV məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludur.

**Əsas:** Vergi Məcəlləsi, 155.1-ci maddə.

# 8 | Bəzi hallar üzrə vergitutma mexanizminin təkmilləşdirilməsi

?

**1. Cəmiyyətimiz sifariş əsasında malların Rusiya Federasiyasından Belarus Respublikasına daşınması ilə bağlı qeyri-rezident daşıyıcı şirkətlə müqavilə bağlayıb və icra olunan daşıma xidmətlərinə görə qeyri-rezidentə ödəniş edir. Həmin daşımalara görə edilən ödənişlərdən ödəmə mənbəyində vergi tutulmalıdırmı?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, Azərbaycan Respublikasının hüdudlarından kənarda digər dövlətlərdəki təyinat (göndərilmə) məntəqələri arasında, habelə Azərbaycan Respublikasının ərazisindən tranzit qaydada həyata keçirilən daşımalara görə rezident müəssisənin və ya sahibkarın ödəmələri həmin Məcəllənin 125.1.4-cü maddəsi üzrə vergitutma obyekti deyildir.
Buna əsasən, sorğuda qeyd olunan Azərbaycandan kənarda digər iki dövlətdə yerləşən təyinat (göndərilmə) məntəqələri arasında aparılan daşımalar üzrə ödəmə mənbəyində vergi tutulmur.

**Əsas:** Vergi Məcəlləsi, 125.1.4-cü maddə.

?

**2. Sosial həmrəylik tədbirləri çərçivəsində bayram günlərində müəssisənin işçisi olmayan, yardıma ehtiyac duyan vətəndaşlara pul şəklində müxtəlif maddi yardımlar edilir. Həmin yardımlar vergiyə və məcburi dövlət sosial sığorta haqlarına cəlb olunurmu?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən muzdlu işçi kimi cəlb etmədiyi fiziki şəxslərə ödənilən maddi yardımlardan ödəmə mənbəyində 14 faiz dərəcə ilə gəlir vergisi tutulur. Müəssisə tərəfindən işçisi olmayan şəxsə ödənilən həmin maddi yardımlar sosial sığorta haqqından azaddır.

**Əsas:** Vergi Məcəlləsi, 101.2-ci və 150.1.7-ci maddələri və “Sosial sığorta haqqında” Qanununun 15-ci maddəsi.

?

**3. Müəssisə öz işçisini Gəncə şəhərində təşkil olunan konfransda iştirak etmək üçün iki günlük ezamiyyəyə göndərir və hər günə görə işçiyə 100 manat ezamiyyə xərci verir. İşçi ezamiyyətdən qayıtdıqdan sonra mehmanxana xərcləri barədə müvafiq təsdiqedici sənədləri müəssisəyə təqdim etmədiyi halda, ezamiyyə məbləğinin hansı hissəsi gəlirdən çıxıla bilər?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, Azərbaycan Respublikasının ərazisi daxilində ezamiyyələr üzrə ezamiyyə xərcləri müvafiq təsdiqedici sənədlər əsasında (gündəlik xərclər istisna olmaqla) Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyənləşdirdiyi norma daxilində gəlirdən çıxılan xərclərə aid edilir. Azərbaycan Respublikasının ərazisində ezamiyyə zamanı mehmanxana xərcləri barədə müvafiq təsdiqedici sənədlər təqdim edilmədiyi hallarda, ezamiyyə xərclərinin 1 günlük normasının mehmanxana xərcləri üçün müəyyən edilmiş hissəsinin 50 faizi gəlirdən çıxılır.

**Əsas:** Vergi Məcəlləsi, 108.4-cü maddəsi.

?

**4. Spirtli içkilərin istehsalı ilə məşğul olan müəssisə tərəfindən hazır məhsullar anbardan topdan qaydada digər sahibkarlıq subyektinə təqdim edilib və həmin məhsullara görə aksizlər hesablanaraq büdcəyə ödənilib. Müqavilə şərtlərinə görə, xarab olmuş məhsullar istehsalçıya geri qaytarıla bilər. Xarab olmuş aksizli malların geri qaytarılması zamanı həmin mallara görə ödənilmiş aksizlər azaldılırmı?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, aksizli malların istehsalçısı tərəfindən malların istehsal binasının hüdudlarından kənara buraxılmasına görə vergi hesablanmışdırsa, həmin malların xarab olması, yaxud istifadə müddətinin bitməsi və ya digər səbəblərdən geri qaytarılması zamanı hesablanmış aksiz malların qaytarıldığı hesabat dövründə azaldılır.
Aksizli malların istehsalçısı tərəfindən malların istehsal binasının hüdudlarından kənara özünə məxsus obyektlərə buraxılmasından sonra həmin malların xarab olması, yaxud istifadə müddətinin bitməsi səbəbindən geri qaytarılması zamanı vergi ödəyicisi həmin malların aktlaşdırılması və hesablanmış verginin azaldılması üçün vergi orqanına müraciət edir. Müraciətin edildiyi tarixdən 5 iş günü müddətində vergi orqanının məsul şəxslərinin iştirakı ilə həmin mallar aktlaşdırılır.
Xarab olmuş, yaxud istifadə müddəti bitmiş məhsullara görə aksizin azaldılması müvafiq aktın tərtib edildiyi hesabat dövründə həyata keçirilir və vergi hesabatı təqdim olunarkən tərtib edilən akt vergi orqanına verilir. Xarab olmuş, yaxud istifadə müddəti bitmiş məhsullar məhv edildikdə, həmin məhsulların istehsalı zamanı əvəzləşdirilmiş aksizin büdcəyə hesablanması həyata keçirilir.

**Əsas:** Vergi Məcəlləsi, 186-1-ci maddə.

?

**5. Ət məhsullarının satışı ilə məşğul oluram. Bu fəaliyyət ilə əlaqədar yaranmış təbii itkilər gəlirdən çıxılırmı?**

Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, qanunvericiliklə müəyyən edilmiş təbii itki normaları daxilində zayolmadan əmələ gələn itkilər, təbii itki normaları daxilində xarabolmalar və bu kimi əskikgəlmələr vergitutma məqsədləri üçün gəlirdən çıxılır.
Əlavə olaraq bildiririk ki, təbii itki normaları Nazirlər Kabinetinin "Ticarət və ictimai iaşə sahəsində ərzaq məhsullarının təbii itki Normaları"nın təsdiq edilməsi barədə 17.07.2018-ci il tarixli 307 nömrəli qərarı ilə müəyyən edilmişdir.

**Əsas:** Vergi Məcəlləsi, 108.5-ci maddə.

?

**6. Vergi orqanında uçotda olmayan vəkillər tərəfindən yaradılmış vəkil firmasında göstərilən fəaliyyətlə bağlı əldə olunan gəlirlər hansı qaydada vergiyə cəlb edilir?**

"Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, vəkil qurumlarının tərkibində fəaliyyət göstərən vəkillər tərəfindən göstərilən vəkillik fəaliyyəti ilə bağlı vəkillərə ödənişi həyata keçirən vəkil qurumu ödəmə mənbəyində vergini tutmağa borcludur.
Buna əsasən, vəkil qurumunun tabeçiliyində çalışan vəkil tərəfindən göstərilən fəaliyyətlə bağlı vəkillərə ödənişi həyata keçirən vəkil qurumu 14 faiz dərəcə ilə ödəmə mənbəyində vergini tutmalı və dövlət büdcəsinə ödəməlidir.

**Əsas:** Vergi Məcəlləsi, 150.1.17-ci maddə.

?

**7. Vəkil qurumunun tərkibində fəaliyyət göstərən vəkillər tərəfindən göstərilən xidmətlərə görə vəkil qurumuna daxil olan vəsait qurumun mənfəət vergisinə cəlb olunan gəlirlərinə aid edilirmi?**

Vəkil qurumunun tərkibində fəaliyyət göstərən vəkillər tərəfindən göstərilən, yaxud göstərilməsi nəzərdə tutulan vəkillik fəaliyyəti ilə bağlı vəkil qurumuna daxil olan ödənişlərin vəkillərə ödənilən, yaxud ödənilməsi nəzərdə tutulan hissəsi qurumun vergi tutulan gəlirlərinə aid edilmir.

**Əsas:** Vergi Məcəlləsi, 104.7-ci maddə.

?

**8. Fəaliyyətim geyim istehsalından ibarətdir. Yanvar ayında işçilərimin sayı 11, fevral ayında 8, mart ayında isə 6 olub. Bu zaman mən sadələşdirilmiş verginin ödəyicisi ola bilərəmmi?**

Vergi Məcəlləsinin müddəalarına əsasən, rüb ərzində işçilərinin (faktiki işə cəlb edilən) orta sayı 10 nəfərdən çox olan istehsal fəaliyyətini həyata keçirən şəxslərin sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququ yoxdur.
Buna əsasən, istehsal fəaliyyəti üzrə rüb ərzində işçilərin orta sayı 10 nəfərdən ((11+8+6)/3=8,3) az olduğundan, həmin fəaliyyət üzrə sadələşdirilmiş verginin ödəyicisi ola bilərsiniz.

**Əsas:** Vergi Məcəlləsi, 218.5.8-ci maddə.

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

**www.taxes.gov.az**